

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 43 (23.455)

3 mart 2020-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


### Rəsmi xronika

Martın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mərkəzi Neftçilər Xəstəxanasının yanında Şah İsmayıl Xətainin heykəlinin köçürüldüyü yeni salınmış parkda olub. Dövlətimizin başçısı heykəlin önünə gül dəstələri qoyub.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov burada görülən işlər barədə məlumat verib. Bildirilib ki, tarixi şəxsiyyət Şah İsmayıl Xətainin heykəli iki magistral yolun ortasında yerləşdiyindən bu, insanların ziyarət etmək üçün heykələ yaxınlaşmasını çətinləşdirir, eyni zamanda yolda tıxacın yaranmasına səbəb olurdu. Bütün bunlar və Şah İsmayıl Xətainin tarixi şəxsiyyət olduğu nəzərə alınaraq dövlətimizin başçısının tapşırığına əsasən onun heykəli uyğun yerə köçürülüb və burada yeni park salınıb.

Prezident İlham Əliyev burada yeni yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı tapşırıq və göstərişlərini verib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Polşa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Rafal Poborskinin etimadnaməsini qəbul edib.






## Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Beynəlxalq Şahmat Federasiyasının 90-cı konqresində iştirak edib

Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov Beynəlxalq Şahmat Federasiyasının Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən 90-cı konqresində iştirak edib.

26 fevraldan başlayan konqres martın 1-də başa çatıb. Konqresdə “Şahmat Tacı” uğrunda keçiriləcək final oyununun yeri və təxmini tarixi açıqlanıb. Final görüşünün Dubayda “Expo-2020” çərçivəsində keçiriləcəyi və dekabr ayının sonlarında başlanılacağı məlum olub.

Beynəlxalq Şahmat Federasiyasının ümumi yığıncağında yeni Nizamnamə təsdiq edilib. Konqresdə federasiyaya yeni üzvlər də qəbul olunub. Bunlar Çad, Ekvatorial Qvineya, Kayman adaları, Qrenada, Sent-Lyusiya, Sent Kits və Nevis federasiyalarıdır. Bununla da üzv olan ölkələrin sayı 195-ə çatdırılmaqla Beynəlxalq Şahmat Federasiyası hal-hazırda dünyada ən çox üzvə malik dördüncü idman federasiyası olub.

Konqresdə bu il oktyabr ayında Naxçıvan şəhərində keçiriləcək on altı yaşadək şahmatçılar arasında Ümumdünya Şahmat Olimpiadası ilə bağlı məsələlər də müzakirə olunub.

“Şərq qapısı”

## Kollegiya iclasında qarşıda duran vəzifələr müəyyənləşdirilib

***Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında qarşıya qoyulmuş vəzifələrlə bağlı Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində kollegiya iclası keçirilib. İclası giriş sözü ilə açan Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov geniş məruzə edib.***




Vurğulanıb ki, son illər bütün sahələr üzrə innovativ yeniliklərin tətbiq olunması, uğurlu sosial-iqtisadi layihələrin həyata keçirilməsi və mühüm əhəmiyyətə malik dövlət proqramlarının reallaşdırılması nəticəsində Naxçıvan sosial-iqtisadi inkişaf baxımından ölkəmizdə liderlik mövqeyi qazanıb. Sosial həyatın bütün sahələrində analoqu olmayan nailiyyətlərin əldə olunmasında başlıca səbəb ulu öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla davam etdirilməsi Vətən sevgisi və yurda bağlılığın nəticəsidir. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən genişmiqyaslı quruculuq və sosial-iqtisadi inkişaf proqramlarını qısaca olaraq belə xarakterizə etmək olar: Ulu öndər Heydər Əliyev yoluna dərin sədaqətdən doğan yüksək vətənpərvərlik və idarəçilik modeli.

Diqqətə çatdırılıb ki, fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçirilən seçkilərdə də ulu öndər Heydər Əliyevin siyasi xəttinin Azərbaycanın inkişaf, sabitlik və rifah yolu olduğu sübut edildi. Seçkilərdə seçicilər növbəti dəfə düzgün seçim edərək cənab Vasif Talıbova sonsuz inam və bağlılığını bir daha göstərdi. Böyük üstünlüklə qazanılan qələbə qədirbilən xalqımızın öz rəhbərinə, onun möhkəm siyasi iradəsinə və yüksək nüfuzuna, idarəçilik istedadına olan dərin inamından qaynaqlanır.

Nazir bildirib ki, altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında deputatların açıq səsvermə yolu ilə yekdilliklə cənab Vasif Talıbovu yenidən Ali Məclisin Sədri seçmələri isə təkcə deputatlıq səlahiyyətlərini icra etmək, seçici etimadını doğrultmaq deyil, eyni zamanda muxtar respublika sakinlərinin dərin inam və sevgisindən yoğurulan siyasi iradənin ifadəsidir.

Ali Məclisin Sədri sessiyadakı çıxışında ulu öndərin siyasi kursunu dəstəkləyən bütün seçicilərə minnətdarlığını bildirərək muxtar respublikanın inkişafının və əhalinin yaşayış səviyyəsinin daha da yüksəldilməsi istiqamətində dövlət orqanlarının qarşısında duran mühüm vəzifələri diqqətə çatdırıb. Muxtar respublikada ictimai-siyasi sabitliyin təmin olunmasını və cinayət hadisələrinin sayının kəskin azalmasını ən mühüm nailiyyətlərdən biri kimi qiymətləndirib, cinayətkarlıqla mübarizə tədbirlərinin gücləndirilməsini, nizam-intizamın daha da möhkəmləndirilməsini, maarifləndirmənin ön planda saxlanılmasını hüquq-mühafizə orqanlarını qarşısında konkret tapşırıq kimi qoyub.

Həmin sessiyada qarşıya qoyulan vəzifələr Daxili İşlər Nazirliyinin növbəti 5 illik fəaliyyətində əsas proqram sənəd kimi qəbul edilərək qüsursuz icra olunması istiqamətində müvafiq tapşırıqlar verilib.

Nazir vurğulayıb ki, son bir neçə il ərzində qarşıya qoyulmuş tələb və tapşırıqlar daxili işlər orqanları tərəfindən qüsursuz yerinə yetirilməklə Naxçıvanın “Cinayətsiz region” statusu qorunub saxlanılıb, cinayətkarlıqla mübarizə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi qanunvericiliklə müəyyən edilib, vəzifələr layiqincə yerinə yetirilib. Verilmiş tapşırıqların icrası istiqamətində əldə olunmuş müsbət nailiyyətlər bundan sonra da qorunub saxlanılmaqla xidməti ərazidə cinayətkarlığın dinamikasına və xidməti fəaliyyətə neqativ təsir göstərən amillər vaxtında aşkar edilib tam aradan qaldırılmalı, əhali ilə aparılan hüquqi maarifləndirmə tədbirləri davam etdirilməlidir. Cəmiyyət arasında nizam-intizama nail olunmalı, insan hüquqlarına və azadlıqlarına hörmət fəaliyyətimizin əsas istiqamətləri kimi qəbul edilməlidir. Bu müstəvidə şəxsi heyət arasında nizam-intizam daha da möhkəmləndirilməli, sağlam və peşəkar polis əməkdaşlarının formalaşdırılması istiqamətində davamlı olaraq tədbirlər həyata keçirilməlidir. Bunlarla yanaşı, mülki-hüquqi öhdəliklərin icrasından yayınan borclu fiziki şəxslərin və cavabdehlərin axtarışının təşkili sahəsində işlər davam etdirilməli, axtarış işinin faizi əvvəlki ildə olduğu kimi yüz faiz təmin edilməlidir.

Nazir Naxçıvan Muxtar Respublikasının daxili işlər orqanları adından cənab Vasif Talıbova yenidən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi münasibətilə təbriklərini ifadə edib, növbəti beşillik fəaliyyətində uğurlar arzulayıb. Cinayətkarlığa qarşı mübarizə və ictimai asayişin təmini sahəsində qarşıya qoyulan vəzifələrin, əməliyyat-xidməti fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı tələb və tapşırıqların bundan sonra da tam həcmdə yerinə yetiriləcəyini, sabitliyin, əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasının təmin ediləcəyini bildirib.

Məruzə ətrafında çıxışlar olub.

✍ Muxtar MƏMMƏDOV

## Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının konfransı keçirilib

***Fevralın 29-da Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının növbədənkənar XVIII konfransı keçirilib.***



Konfransı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sabiq sədri Sucaxan Novruzov öz ərizəsi ilə işdən azad olunub. Buna görə də şuranın növbədənkənar konfransının keçirilməsi zərurəti yaranıb.

Sonra konfransın katibliyi seçilib, gündəliyi və iş qaydası təsdiq olunub.

Şuranın sədr müavini Xatirə İbrahimli çıxış edərək Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının hesabatını diqqətə çatdırıb, nöqsanlar qeyd olunub.

Bildirilib ki, bir çox təşkilatlarda vaxtı keçmiş kollektiv müqavilələr yenilənməyib. Sanatoriya-kurort yollayışının verilməsində nöqsanlara yol verilib. Bu sahədə bəzi şikayətçilərin haqlı tələbləri yerinə yetirilməyib. Aparılan yoxlamalar zamanı məlum olub ki, 30-dan yuxarı ilk təşkilatlar, illik iş planında nəzərdə tutulan tədbirləri vaxtında icra etməyib, əməyin mühafizəsi ilə bağlı maarifləndirmə tədbirləri aparılmayıb.

Konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov bildirib ki, Həmkarlar İttifaqları Şurası qarşıya qoyduğu vəzifələri layiqincə icra etməyib. Təşəbbüskarlıq yoxdur, əmək hüquqlarının qorunmasına lazımi diqqət yetirilməyib.

Gündəlikdə duran ikinci məsələ Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası sədrinin seçilməsi olub. Həmkarlar İttifaqları Şurasının sədri vəzifəsinə Anar İbrahimovun namizədliyi təklif edilib.

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Naxçıvan Muxtar Respublika Komitəsinin sədri Rövşən Hüseynov və “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Eyvaz Əsgərov bu təklifə tərəfdar çıxdıqlarını bildiriblər.

Beləliklə, təklif səsə qoyulub və Anar İbrahimov Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri seçilib.

Anar İbrahimov konfransda çıxış edərək göstərilən etimadı doğruldacağını bildirib.

Sonra Həmkarlar İttifaqları Şurası Məclisinin yeni tərkibi təsdiq olunub.

Bununla da Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının növbədənkənar XVIII konfransı öz işini başa çatdırıb.

“Şərq qapısı”

***Muxtar respublikamızın ən böyük bölgələrindən biri olan Şərur rayonunda bütün sahələrdə əldə olunan nailiyyətlərin həcmi ötən il bir qədər də artıb, insanların gün-güzəranı daha da yaxşılaşıb. Belə də olmalıdır. Çünki Ulu Tanrı öz səxavətini bu qədim yurd yerindən əsirgəməyib. Torpaqlarının bərəkətinə söz ola bilməz. Qədim tarixi abidələri min illərdən bu günə boylanan körpüdür. İnsanları yurd, torpaq təəssüblüdürlər. Elm, mədəniyyət xadimlərinin səsi-sorağı dünyanın müxtəlif ölkələrindən gəlir. Tarixə qovuşan 2019-cu ildə bölgədə həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərinin, reallaşdırılan iqtisadi layihələrin rayona gətirdiyi yeniliklər saymaqla qurtaran deyil. Həmin yeniliklər muxtar respublikanın bütün bölgələri kimi, Şərurun da ayrılmaz həyat ritminə çevrilib. Burada kiminlə həmsöhbət olsan, görülən işlərdən razılıqla danışır, minnətdarlığını bildirir. Bu da təbiidir. Onlar qədim diyarın müasirliyə qovuşmasına ürəkdən sevinir, qurulub-yaradılanların qayğısına qalmağı özlərinin vətəndaşlıq borcu sayırlar.***



*İnkişaf edən bölgələrimiz*

# Hər bir uğurun təməlində insana, onun layiq olduğu səviyyədə yaşamasına qayğı dayanıb

### *Şərurun quruculuq xəritəsində 2019-cu ilin ərməğanları*

Bu gün oxucularımız da təsdiq edərlər ki, qədim diyarımızın hansı ünvanında – istər rayon mərkəzlərində, istərsə də ən ucqar dağ və sərhəd yaşayış məntəqələrində ilk olaraq yenilənmiş yollar diqqətimizi cəlb edir. Elə Şərurda da belədir. Qədim yurd yerinin dünya standartlarına cavab verən yolları böyük təşkilatçılıq, sabaha cavabdehlik hissinin ifadəsidir. Bu böyük layihə həm də "Mədəniyyət yoldan başlanır" deyimini yada salır. Hazırda da bir neçə ünvanda belə tədbirlər davam etdirilir və bu barədə bir qədər sonra ətraflı söhbət açacağıq.



Məlumat üçün bildirək ki, 2019-cu ildə iqtisadiyyatın və sosial sahələrin inkişafı məqsədilə bütün maliyyə mənbələrindən əsas kapitala 79 milyon 377 min 200 manat investisiya yönəldilib. Bunun 75 milyon 306 min 800 manatı tikinti-quraşdırma işlərinə sərf olunub. İl ərzində 71 müxtəlif təyinatlı obyekt tikilib, yenidən qurulub və ya əsaslı təmir edilib. 27 müxtəlif təyinatlı obyektin tikintisi və ya yenidən qurulması davam etdirilib. Göründüyü kimi, bunlar heç də kiçik rəqəmlər deyil və bu rəqəmlərin arxasında insana qayğı dayanır.

Bu gün şərurlular sevinc içərisindədirlər ki, sənaye sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarların fəaliyyətlərinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin məşğulluğunun artırılması məqsədilə ölkə Prezidenti cənab İlham Əliyev 2019-cu il 13 sentyabr tarixdə Şərur Sənaye Məhəlləsinin yaradılması haqqında Fərman imzalayıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Şərur Sənaye Məhəlləsinin yaradılacağı ərazidə görülən işlərlə tanış olub və tikinti işlərinin layihəyə uyğun aparılması, daha çox tələbat olan məhsulların istehsalına üstünlük verilməsi, mühəndis-texniki tələblərə əməl olunması barədə müvafiq tapşırıqlar verib. Burada ehtiyac duyulan sənaye üzrə istehsal sahələri, habelə xidmət müəssisələri fəaliyyətə başlayacaq. Yeni iş yerləri yaradılacaq. Bu da əhalinin məşğulluğuna töhfələrini verəcək.

Yeri gəlmişkən qeyd edək ki, ötən il rayonda dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 26 layihə üzrə istehsal və xidmət obyektləri yaradılıb, 13 layihənin icrası isə davam etdirilib. Müasir sənaye müəssisələrinin yaradılması və sənayenin infrastruktur təminatının yaxşılaşdırılması məhsul istehsalının həcmini artırıb. 2019-cu ildə rayonda 96 milyon 545 min 900 manat dəyərində sənaye məhsulu istehsal olunub.

Bu dövrdə təhsil, səhiyyə, mədəniyyət ocaqlarının tikintisi, yol və digər infrastrukturların yenilənməsi də diqqət mərkəzində saxlanılıb. Belə ki, bəhs olunan dövrdə Şərur şəhərində Mərkəzi və Uşaq xəstəxanalarının, Mərkəzi univermağın əsaslı təmir və yenidənqurma işləri başa çatdırılıb, Şərur şəhərində 3 çoxmənzilli yaşayış binasında isə son tamamlama işləri aparılıb, Maxta kəndində Çernobıl əlili üçün yaşayış binası inşa olunub. Mədəniyyət Sarayının, "Naxçıvanbank"ın rayon filialının inzibati binasının, 35/10 kilovoltluq subartezian yarımstansiyasının, müasir yaşayış binasının, Təqaüdçülər Klubunun, Mərasim evinin tikintisi və yenidən qurulması davam etdirilir.

Rayon mərkəzi ilə yanaşı, Kərimbəyli, Qışlaqabbas, Muğanlı, Alışar, Yeni Havuş-Xətai və Xələc kəndlərində də kompleks quruculuq işləri aparılıb. Sözügedən kəndlərdə tam orta məktəb binalarının, kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyalarının tikintisi və yenidən qurulması işləri başa çatdırılaraq əhalinin istifadəsinə verilib, adıçəkilən kəndlərdə 40 kilometrdən artıq yol infrastrukturu tamamilə yenilənib. Heydər Əliyev prospektini və altı küçəni əhatə edən 11 kilometrlik avtomobil yolunda, Daxili Qoşunlar üçün nəzərdə tutulmuş binalarda, 3 saylı Sərhəd Zastavasında, Muğancıq Mehrab və Məmmədsabir kəndlərində kompleks quruculuq işləri davam etdirilir.

Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib, "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatının və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində noyabr ayının 9-da Ali Məclis Sədrinin iştirakı ilə keçirilən açılış tədbirində Zeyvə və Düdəngə kəndlərində içməli su sistemi istifadəyə verilib. Sözügedən layihənin davamı olaraq artıq Cəlilkənddə içməli su şəbəkəsinin tikintisinə başlanılıb, Dizə kəndində isə gücü saniyədə 271 litr olan sutəmizləyici qurğunun və 27 min kubmetr həcmində üç su anbarının tikintisi davam etdirilir.

Həyata keçirilən bütün layihələr bir məqsədə ünvanlanıb: şərurluların yaşayış səviyyəsini yaxşılaşdırmaq, insanların layiq olduğu səviyyədə yaşamasına nail olmaq. Rayon sakinləri də bu həqiqəti dərindən dərk edir, rayonun, muxtar respublikanın və nəticə etibarilə ölkəmizin sosial-iqtisadi inkişafına öz töhfələrini verməyə çalışırlar.

### *Torpaq mülkiyyətçiləri bu qiymətli sərvətin qədrini bilirlər*

Rayonda kənd təsərrüfatı məhsulları istehsalının artırılması məqsədilə aqrar sektorda kompleks tədbirlər həyata keçirilməsinin davamlı xarakter alması daxili bazarda məhsul bolluğu yaradıb. 2019-cu ildə 17 min 115 hektar sahədən müxtəlif kənd təsərrüfatı məhsulları tədarük edilib. "Öz taxılım, öz təknəm!" prinsipini yaşadan şərurlular 4127 hektar taxıl əkini sahəsindən 13 min 947 ton məhsul götürüblər.

Kartofçuluqda zəngin təcrübə qazanılmış rayonda 1094 hektar kartof əkilmiş sahədən 16 min 890 ton məhsul tədarük edilib. Tütünçülüyün inkişafına da son illərdə diqqət xeyli artıb. Bunun ifadəsidir ki, ötən il 2,5 hektar sahədə tütün əkini aparılıb, sahələrdən 3,4 ton tütün yığılıb.

Əhalini təzə və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək məqsədilə rayonda dörd soyuducu anbar yaradılıb. Əlavə olaraq üç soyuducu anbar genişləndirilib. Bir yeni soyuducu anbarın yaradılması, bir soyuducu anbarın genişləndirilməsi, Ələkli kəndində istixana təsərrüfatının qurulması isə davam etdirilib.





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası rayonda əhalinin belə məhsullara olan tələbatının yerli istehsal hesabına təmin edilməsinə geniş imkanlar açıb. Bəhs olunan dövrdə barverən üzüm bağlarından 1582 ton məhsul yığılıb, yeni üzüm bağları salınıb.

Bölgədə məhsul istehsalçılarının müasir kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı da diqqət mərkəzində saxlanılıb, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 1 milyon 669 min 900 manat dəyərində 86 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə sahibkarlara satılıb.

Kənd təsərrüfatının əsas sahələrindən biri olan heyvandarlığın inkişafının daim dəstəklənməsi iribuynuzlu mal-qaranın və xırdabuynuzlu heyvanların baş sayının, ət və süd məhsulları istehsalının həcminin artmasına müsbət təsir göstərib. Belə ki, bəhs olunan dövrdə rayonda 5 heyvandarlıq və 1 quşçuluq təsərrüfatının yaradılması, 4 heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılıb. Bu dövrdə rayonda diri çəkidə 8627,1 ton ət, 28707,6 ton süd, 22258 min ədəd yumurta, 194,4 ton yun istehsal edilib.

Arıçılığın inkişaf etdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq bu sahədə müvafiq tədbirlər görülüb, bir arıçılıq təsərrüfatının yaradılması, birinin isə genişləndirilməsi davam etdirilib, 188 ton bal istehsal olunub.

Ümumilikdə, 2019-cu ildə rayonda 155 milyon 962 min 300 manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilib.

### *Digər sahələrdə də uğurlar artır*

Adıçəkilən dövrdə rayonda ümumtəhsil məktəblərinin maddi-texniki bazasının gücləndirilməsi davam etdirilib, görülən tədbirlər təhsilin keyfiyyətinin yüksəldilməsinə zəmin yaradıb. 2018-2019-cu tədris ilində rayonun tam orta məktəblərini 531 məzun bitirib, 1 nəfər qızıl, 3 nəfər gümüş medala, 6 məzun tam orta, 5-i isə ümumi orta təhsil haqqında fərqlənmə attestatına layiq görülüb. Onlardan 435-i ali məktəblərə sənəd verib. 262 abituriyent ali məktəblərə qəbul olunub. Tələbə adını qazananlardan 46-sı 500-700 intervalında bal toplayıb. Dərvişlər kənd tam orta məktəbinin məzunu isə qəbulda əldə etdiyi yüksək nəticəyə görə Prezident təqaüdünə layiq görülüb.

Xüsusi təyinatlı məktəblərə 5, Heydər Əliyev adına Hərbi Liseyə 29, Naxçıvan Tibb Kollecinin Hərbi feldşer ixtisasına isə 5 nəfər daxil olub.

Ötən il ərzində rayonda idmanın inkişafı, federasiyaların, federasiya bölmələrinin fəaliyyəti də diqqətdə saxlanılıb. Bunun ifadəsidir ki, 2019-cu il ərzində rayonun idmançıları bir sıra nailiyyətlər əldə ediblər. 1 nəfər Naxçıvan Muxtar Respublikası Şahmat Mərkəzində keçirilən əmsal yarışında I, Bakı şəhərində keçirilən Azərbaycan birinciliyində isə IV yerin qalibi olub. Oktyabr ayında Rumıniyanın paytaxtı Buxarestdə yeniyetmələr arasında keçirilən ağır atletika üzrə Avropa çempionatında Tərmenxan Babayev rekordu təzələyərək qızıl medal qazanıb.

İlin yekununda Şərur Rayon Şahmat Məktəbi muxtar respublika üzrə 3-cü yerə layiq görülüb, məktəbin 2 nəfər müəllimi və 2 nəfər şagirdi mükafatlandırılıb.

Muxtar respublikada müasir səhiyyə infrastrukturunun yaradılması insan amilinə verilən dəyərin ifadəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 25 yanvar tarixdə imzaladığı "Şərur rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında" Sərəncamına uyğun olaraq iyun ayının 1-dən rayon ərazisində icbari tibbi sığortanın tətbiqinə başlanılıb, Şərur Rayon Mərkəzi və Uşaq xəstəxanalarına publik hüquqi şəxs statusu verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 24 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Şərur yallılarının tədqiqi, təbliği və qorunması ilə əlaqədar Tədbirlər Planı"nın icrası ilə bağlı muxtar respublikada ifa edilən 20 yallının reyestri təsdiq edilib, oktyabr ayından isə "Yallı" filminin çəkilişinə başlanılıb.

Şərur Xalq Yallı Ansamblı 2019-cu ilin may-iyun aylarında Ukraynanın Kiyev və Türkiyə Respublikasının Ərzurum şəhərlərində Naxçıvan Muxtar Respublikasının 95 illiyi münasibətilə keçirilən tədbirlərdə yüksək səviyyədə iştirak edib. Şərur Rayon Xalq Teatrı 2019-cu ilin iyun ayında Bakıda keçirilən "III Respublika xalq teatrlarının festivalı"nda II yerə layiq görülüb.

2019-cu ildə rayonda əhalinin məşğulluğu, məhdud fiziki imkanlıların və aztəminatlı ailələrin problemlərinin həlli istiqamətində mühüm tədbirlər həyata keçirilib. Bu dövrdə rayonda 500-dən yuxarı yeni iş yeri yaradılıb.

### *Şərurlular 2020-ci ilə yüksək əhval-ruhiyyə ilə qədəm qoyublar*

Rayondakı bu ruh yüksəkliyini həmsöhbət olduğumuz insanların çöhrələrindən, söhbətlərindən, həyatın öz axarı ilə davam etməsindən görmək mümkün idi. Tikinti-quruculuq işləri davam etdirilir, emal və sənaye müəssisələri yeni ildə də böyük uğurlar qazanmaq əzmi ilə çalışır, insanlar rayonun daha da çiçəklənməsi, iqtisadi cəhətdən güclənməsi üçün səy və bacarıqlarını əsirgəmirlər. Ötən il qazanılanları son hədd hesab etməyən rayon sakinləri 2020-ci ildə də yüksək göstəricilərə nail olacaqlarına inanırlar. Çünki arxalarında güclü dövlətin durduğunu görürlər. Belə dövlətin vətəndaşları olmaqla qürur duyurlar. Bilirlər ki, nail olunan hər bir uğurun təməlində insana, onun layiq olduğu səviyyədə yaşamasına qayğı dayanıb. Bu qayğı getdikcə artır, insanların həyat tərzi yaxşılaşır.

**Muxtar MƏMMƏDOV**
**Elman MƏMMƏDOV**

Oxunması zəruri olan kitablar

# Kamillik, mərifət məqamına yetişmək istəyirsənsə...

**_Həyatdakı ən üstün amallardan sayılan mərifət məqamına yetişmək, kamillik zirvəsinə ucalmaq istəyənləri düzgün yola istiqamətləndirmək məqsədi daşıyır “Oxunması zəruri olan kitabların Siyahısı”nda yer alan Məhəmməd Tağı Sidqinin “Məktəb hekayələri” kitabı. Ey əziz oxucu, aç oxu sən də bu kiçikhəcmli böyük təfəkkür aşılayan dəyərli nəşri. Oxu ki, mənəviyyatını kamilləşdirən elmin, ədəbin və digər üstün əxlaqi keyfiyyətlərin məğzini, mahiyyətini dərk edəsən. Bununla da hərəkətlərinə ölçü, nizam qoyaraq nəyin düz, nəyin yanlış olduğunu müəyyən edib naqisliklərindən kənar ola biləsən. Hekayələrdəki kimi sən də özünə sual verməklə məsələnin dərinliyinə varmağa çalışasan._**




Misal üçün deyə bilərsən məktəb nədir mənim üçün? Suala tez deyil, dolğun cavab verməyə çalış, bu barədə bir az dərindən düşün, yəqin ki, elmin qapılarını açan bir xəzinə canlandı gözlərin önündə. Əsərdəki *“Məktəb cəhalət dərdinin dərmanı və mərifət bağının xiyabanıdır ki, həmişə cahilləri alim və divanələri aqil eylər”* fikrindən yola çıxaraq keçmişə səyahət et. Əcdadlarının, ata-babalarının həyat tərzi ilə bağlı eşitdiklərini, oxuduqlarını düşüncəndə özünəxas təhlil et, nəticə çıxar. Elmin üstünlüyünü aşılayan Nizamidən başlamış cahilliyi ifşa edən, ana dilimizin müqəddəsliyini aşılayan Mirzə Cəlil də daxil olmaqla, keçmişdən günümüzə maarifpərvər körpü salan yazıçı və şairlərimizin dəyərli irsinə nəzər salsan, şübhəsiz ki, Məhəmməd Tağı Sidqinin bu sözlərinin önəmini dərk edəcəksən. Əgər məktəbdə oxuyursansa, elmin ləzzətini anlayan, hazırcavab şagirdlə tənbəlin, laqeydin də fərqinə asanlıqla varacaqsan. Buna görə sən də çalış məktəbi, elmi, müəllimi sevən şagirdlərdən ol ki, bu əsərdəki prototiplər kimi qınaq hədəfinə çevrilməyəsən, həmyaşıdların arasında yaxşı mənada seçiləsən, böyüklərin nəzərində mərifət sahibi olasan. Elmin qapılarını açmaq üçün əvvəlcə valideynlərini və müəllimlərini sev. Valideynlərini ona görə ki, onlar səni min bir zəhmət bahasına böyüdüb elm dalınca yola salırlar. Müəllimlərinsə qarşında geniş üfüqlər açır, birinci gün partaya əyləşməyindən başlayaraq məzun adı qazanıb ali məktəbə qəbul olanadək qarşılaşacağın bütün maneələrdən necə keçəcəyini hər incəliyinədək izah edir, düzgün yol göstərirlər.

Əsəri diqqətlə mütaliə etsən, görərsən ki, cəmiyyətin təkmilləşməsində, müasir intellektual mühitin formalaşmasında elmin əhəmiyyəti necə böyükdür. *“İnsanların bir-birindən zahirdə heç bir təfavütü yoxdur. Amma qüdrət və qüvvətdə, hörmət və izzətdə bir-birindən fərqi çoxdur”* fikirlərini beynində təhlil et. Bəli, ətrafındakı insanların hər birinin cəmiyyət həyatındakı mövqelərinə, nəzər salsan, görərsən ki, üstünlük yalnız elmlinin, ədəblinin tərəfindədir. Əlqərəz, elmsiz insan ruhsuz cisim, əməlsiz alim də meyvəsiz ağaca bənzər. Ədəb barədə yazılanları diqqətlə oxu. *“Elm ilə ədəb insana ata və ana əvəzidir”* fikrinin üzərindən tələsik keçmə, düşün. Dərk et ki, bu gün uşaq olduğun üçün atan, anan sağlam, hərtərəfli böyüməyində, həyatını qurmağında necə vacib rol oynayırsa, elmə, ədəbə yiyələnməyin də gələcək fəaliyyətinə müsbət mənada təsir edəcək, beləcə, həyat pillələrini daha rahat qalxacaq, üzləşdiyin çətinliklərdən üzüağ çıxmağı bacaracaqsan. *“Ədəb bir gündür ki, hər evə düşsə, o evi işıqlandırar”* sözlərini təkcə uşaqlar deyil, valideynlərin də oxuyaraq dərk etməsi vacibdir. Əziz valideyn, bu fikirlərə əsaslanıb bil ki, sabah bir ailənin qurulması, həmin gənclərin öz ayaqları üzərində durması bu gün sənin övladını necə elm verib ədəblə böyütməyindən çox asılıdır. Elə isə bu əsəri oxumaq, burada yer alan dəyərli fikirləri təhlil edərək nəticə çıxarmaq sənin üçün də zəruridir. Ey gələcəyimiz olan uşaqlar, ata və ananın həyatınızdakı qiymətini, dəyərini dərindən dərk etmək üçün oxuyun bu əsəri. O zaman varlığınızın əsas səbəbkarları, gələcəyinizin təməl daşlarını atan valideynlərinizin qiymətini daha müfəssəl başa düşərək onların qulluğunda daim canla-başla durmağı ümdə vəzifə hesab edəcəksiniz. Oxuyun ki, böyüyəndə valideynlərini atıb gedən naxələf övladlardan olmayasınız. Bilin ki, yaşadığınız fani həyat elə bir imtahandır ki, bu gün etdiyiniz yaxşılıq və yaxud da pislik sabah mütləq qarşınıza çıxacaq.

Əziz məktəbli, ədəbli uşağın hekayəsinə diqqət et. Buradakı qısa və əhatəli *“İnsaniyyətin nişanəsi tərbiyə və ədəbdir”* fikrindən yola çıx. Görürsənmi, hekayənin qəhrəmanı olan Əhməd necə hazırcavab və ədəbli şagirddir. Verilən suallara ədəb-ərkanla, düzgün cavablar qaytarmaqla böyüklərin nəzərində ucalır. Hekayəni dərindən oxusan, aydın olar ki, ədəb və elm yalnız bir araya gələndə insana üstün mövqe, mərifət məramı qazandırır.

İki tərbiyə üsulundan bəhs edən hekayəni valideynlərin oxuması daha məqsədəuyğundur. Əziz valideyn, oxu ki, birinci bacı kimi övladını ərköyün formada böyüdüb gələcəyini korlamayasan. Uşağın hər istədiyini alım, yetər ki “xətri”nə dəyməyim, – deyib tərbiyəsinə laqeyd yanaşsan, nəsihət verməsən, düzgün davranış qaydaları aşılamasan, şübhəsiz ki, hekayədəki uşaq kimi sənin də övladın tənbəl və elmsiz qalacaq. Ancaq ikinci tərbiyə üsulundakı kimi düzgün əxlaqi keyfiyyətlər aşılasan, övladın həm sənin fəxrinə çevriləcək, həm də Vətəninə, millətinə layiqli vətəndaş kimi yetişəcək. Məşhur Ərəstunun dediyi *“Uşağın pisliyi və yaxşılığı valideynə aiddir. Çünki övlad ata və ananın bir parçasıdır”* fikrinin mahiyyətinə varın ki, bu torpaq, bu el üçün daim layiqli övladlar yetişsin...

Əziz şagirdlər, sözüm sizədir. Əsərdəki məktəbə davamiyyəti yüksək olan şagirdlə bu həssas məsələyə səhlənkar yanaşan uşağın hekayələrini də ayrı-ayrılıqda oxuyun və düşünün. Çox güman ki, həmyaşıdlarınız arasındakı bu xüsusiyyətləri daşıyanlar yaddaşınızda canlanacaq. Şübhəsiz, elə özünüz də bu iki xüsusiyyətdən birinin daşıyıcısısınız. O zaman diqqətlə oxuyub, gələcəyiniz üçün nəticə çıxarın. Məktəbə davamlı gələn uşağın gündəlik hərəkət qrafikini, davranış qaydalarını xarakterizə edin. Bu zaman sizə də aydın olacaq ki, o, böyüyəndə də işinə məsuliyyəti ilə seçiləcək, kollektiv içərisində imic formalaşdıraraq uğur yoluna qədəm qoyacaq. Ancaq səhlənkar şagird, əksinə, həm elmdə, həm də ədəb-ərkanda “sinifdə qaldığı” üçün həmyaşıdları arasında pis nümunə kimi barmaqla göstəriləcək. İndi düşünün, hansı yol sizin üçün mübahdır...

İki bacının söhbətinə də qulaq verməyi unutmayın. Hekayədə ananın qızına, eləcə də Səadətin kiçik bacısına elmlə, təhsillə bağlı verdiyi dəyərli tövsiyələri hər incə detalınadək oxuyun. Ananın qızına xitabən dediyi *“Bir vaxt olacaq ki, sən də bir evin zəhmətkeş və bir dudmanın mürəbbisi olacaqsan. Əgər indi elm və tərbiyə kəsb etməsən, bəs o zaman hansı fəzilət ilə fəxr edəcəksən? Bir evin ümuratını necə dolandıracaqsan?”* sözlərdən siz də İzzət kimi nəticə çıxarın. “Sitarə və xalası”, “Ata və ana məhəbbəti” hekayələrini də diqqətlə oxuyun. Oxuyun ki, ata və ananın övladı üçün çəkdikləri cəfaları daha dərindən dərk edərək valideynlərinizə olan məhəbbətinizi birəbeş artırasınız. Zira, çalışın övladın hər zəhmətinə qatlaşan valideynlərdən, ata və ananın qulluğunda duran saleh övladlardan olasınız.

“Cəsur və ürəkli uşaq” hekayəsini də oxumaqdan çəkinməyin. Çəkinməyin ki, cəsur uşaq olub hər boş fikirlərlə özünüzü qorxutmayasınız. Ürəkli şagird olmaqla bərabər, dərslərinizi də yaxşı oxuyun ki, məktəbdə müəllimə cavab verəndə rənginiz qızarıb, diliniz dolaşmasın. Hər sualı mərdi-mərdanə, dürüstcəsinə cavablandırın ki, sonradan peşmançılıq çəkməyəsiniz. Əlqərəz, qorxaq və yalançı insan öz kölgəsindən belə, qorxar, yalan üzərində qurulanlar gec-tez məhvə düçardır. Əsərdəki Rübabə obrazının xarakterini qızlarımız mənimsəsə gözəl olar. Siz də onun kimi özünüzdə ədəb-ərkanlı xarakter formalaşdırın ki, görənlər, tanıyanlar *“kaş mənim də belə bir qızım olaydı”*, – deyib həsəd aparsın.

“Gözütox uşağın hekayəti”nə nəzər salın. Atanın üç oğluna onları sınamaq üçün verdiyi tapşırıqları diqqətlə oxuyun. Çünki siz də belə situasiyalarla qarşılaşa bilərsiniz. Elə isə həmin oğlanların etdiklərini diqqətlə dünüşüb bir nəticəyə varın. “Əziz” prototipi kimi hərəkət etsəniz, insaflı, insanpərvər və gözütox xüsusiyyətlər ilə böyüyüb hər kəsin nəzərində hörmət, mərifət sahibi olacaqsınız.

“Səxavətli uşaq” hekayəsindəki hadisələri də analiz edin. Ətrafınızdakı insanların davranışlarına nəzər yetirin və özünüz görəcəksiniz ki, səxavət necə ali insani keyfiyyətdir. Hekayədə də deyildiyi kimi, səxavətin ləzzətini anlayanlar insanlıq mərtəbəsinə yetişiblər.

“Qıçı sınmış uşağın” anasına olan dərin məhəbbətini hiss edin. Görürsünüzmü, o uşaq anasının onun üzərində çəkdiyi zəhmətləri necə dərindən dərk edir. Qıçı sınsa belə, naxoş anasının onun çəkdiyi əziyyətləri duymaması üçün ağrıya dözərək sınıqçıya belə deyir: *“Anamın dərdindən bu zəhmətə dözüb davam edirəm ki, səsimi eşitməsin. Çünki onun mənə o qədər məhəbbəti var ki, mənim sızıltıma dözə bilməz”...*

“İtaətsiz uşaq” hekayəsi... Bəli, dünyada ən zərərli vərdişdir ana-ataya itaətsizlik etmək. Oxu bu hekayəni ki sən də belə övladlardan olub cəmiyyətin qınağına tuş gəlməyəsən. Düşün, məgər ətrafında itaətsiz uşaqlar azmıdır? Əlbəttə, yox. Elə isə itaətsizlərə baxaraq bircə anlıq özünü onların yerində hiss elə. Gördünmü, necə ağırdır belə olmaq? O zaman sən elələrindən olmamağa çalış. Elə uşaq gördüyündə ona bu hekayəni oxumağı məsləhət gör. Əgər qulaq asmasa, özün izah elə, itaətsizliyin ağır nəticələrə gətirib çıxaracağına inandır onu. Çünki inam həyatda ən böyük qazancdır. İnandır ki, pis vərdişdən çəkinməyə mənəvi gücü olsun. Əgər “Dikbaş uşaq” hekayəsini mütaliə etsən, dikbaşlığın ağır aqibətini görərsən.

Ümumiyyətlə, kitabda yer alan bütün hekayələri diqqətlə oxuman zəruridir. Oxu ki, ədəbin, elmin səni yüksəklərə qaldıracağına əmin olub, qorxaqlıq, yalançılıq kimi pis vərdişlərdən uzaq durasan. Və nəhayət, kitabın sonundakı “Heykəli-insanə bir nəzər”i oxu ki, bəşəriyyət yaranandan bu günədək insan övladının keçdiyi böyük təkamül prosesləri, dövrlə bərabər dəyişilən xarakterlər, xüsusiyyətlər, bir sözlə, insanlıq fəlsəfəsi gözlərin önündə canlansın. Ancaq unutma ki, oxuduqlarına əməl etməyin vacibdir, çünki elminə əməl etməyən alim əlində bir işıqlı çıraq saxlayan kora bənzəyər.

*Müdriklərin də dediyi kimi, oxumaq, öyrənmək, əməl etmək heç vaxt gec deyil. Elə isə gözləmə. Ancaq düzgün kitab seçməyin də mühümdür. Faydalı əsər mütaliə et ki, atdığın addımlarda, gördüyün işlərdə sənə mənən kömək etsin, doğru yol göstərsin. Bunun üçün “Oxunması zəruri olan kitabların Siyahısı”na nəzər etməyin yetər. Mütaliə yolçuluğuna ədəb, elm, mərifət aşılayan “Məktəb hekayələri” ilə başlaya bilərsən. Əgər kamillik, mərifət məqamına yetişmək istəyirsənsə, buyur aç bu kitabı...*

**Nail ƏSGƏROV**

*Naxçıvan Dövlət Universitetində “Azərbaycan Respublikası iqtisadiyyatının davamlı inkişafında innovasiyaların rolu” adlı respublika elmi konfransı keçirilib.*

## İnnovasiyaların iqtisadi inkişafda roluna dair konfrans keçirilib



Tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev qeyd edib ki, Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar innovasiya və texnologiyaların inkişafına da öz müsbət təsirini göstərir. Müasir dövrdə ölkə başçısının qətiyyətli rəhbərliyi ilə regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları muxtar respublikada da iqtisadi inkişafın artım dinamikasını təmin edib. Ölkənin xarici siyasətinin əsasında iqtisadi imkanların əsas yer tutduğunu qeyd edən rektor iqtisadiyyatın davamlı inkişafı və rəqabət qabiliyyətinin artırılması, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya və yüksək texnologiya sahələrinin genişləndirilməsinin dövlət siyasətinin prioritet istiqamətlərindən olduğunu diqqətə çatdırıb.

“Azərbaycan Respublikasında innovasiya yönümlü iqtisadi inkişaf modelinə keçidin zəruriliyi və davamlı inkişafın təmin edilməsinin əsas prinsipləri” mövzusunda çıxış edən iqtisad üzrə elmlər doktoru, professor Teymur Abbasov qeyd edib ki, innovasiya termini elmi-texniki inkişaf, keyfiyyəti artırmaq və mövcud sistemi daha da təkmilləşdirmək mənasını ifadə edir. Yeni ideyaların, təkliflərin, elmi-texniki inkişaf nəzəriyyələrinin praktik tətbiq edilməsinin kompleks həyata keçirilməsi prosesi olan innovasiya əsaslı iqtisadiyyat dövrünün ən dinamik və gəlirli istiqamətlərindən sayılır.

İqtisad üzrə fəlsəfə doktoru, AMEA İqtisadiyyat İnstitutunun böyük elmi işçisi Təbriz Yadigarov “Dəniz nəqliyyatının iqtisadi artıma təsirinin qiymətləndirilməsi” mövzusunda çıxışında bildirib ki, dünyanın mühüm qlobal problemlərindən olan qədim İpək Yolunun bərpası və Azərbaycanın Şimal-Cənub və Şərq-Qərb kimi iki böyük nəqliyyat qovşağında yerləşməsi Azərbaycanda dəniz nəqliyyatının inkişafını şərtləndirir.

“Sənaye 4.0 və onun iqtisadi inkişafa təsiri” mövzusunda çıxış edən iqtisad üzrə fəlsəfə doktoru, dosent Mehriban İmanova vurğulayıb ki, dijital adlandırılan dördüncü sənaye inqilabı bütün sahələrdə insanların rolunu minimuma endirəcək. “Sənaye 4.0” dövründə robotlaşma təkcə insanların öz iş yerlərini itirməsi ilə deyil, həmçinin biznesin ən fərqli sahələrində: menecment, İT, robotlaşma, mühəndislik, elektroenergetika, marketinq və satışda yeni imkanların yaranması ilə müşayiət olunacaq. Bu sənaye inqilabında rəqabətə tab gətirmək üçün innovasiyaların tətbiqinin vacibliyi qeyd edilib.

Konfrans bölmə iclasları ilə davam edib.

Sonda konfrans iştirakçılarına rektor tərəfindən sertifikatlar təqdim edilib.

**Səadət ƏLİYEVA**

## IX sinif şagirdləri üçün buraxılış imtahanının birinci mərhələsi olub

*Dövlət İmtahan Mərkəzi martın 1-də Bakı, Şirvan şəhərləri və Naxçıvan Muxtar Respublikasının ümumtəhsil müəssisələrinin 9-cu sinfində təhsil alan 39 min 966 şagird üçün buraxılış imtahanının birinci mərhələsini keçirib.*



İmtahanların təşkil edilməsi üçün 87 ümumi imtahan rəhbəri, 258 imtahan rəhbəri, 3145 nəzarətçi-müəllim, 268 buraxılışı təşkil edən əməkdaş, 87 bina nümayəndəsi ayrılıb. İmtahan saat $11^{00}$-da başlanıb və 3 saat davam edib.

Naxçıvan Muxtar Respublikasında keçirilən imtahanlarda, ümumilikdə, 3536 şagird iştirak edib. Bunun üçün 12 imtahan binası ayrılıb, 170 zal hazırlanıb, 346 nəzarətçi və 28 imtahan rəhbəri cəlb olunub. Şagirdlərin bilik və bacarıqlarını yoxlamaq məqsədilə tədris dili, riyaziyyat və xarici dil fənləri üzrə, ümumilikdə, 45 tapşırıq təqdim edilib.

İmtahanda istifadə olunan açıqtipli tapşırıqların yoxlanılması uzun müddət tələb etdiyindən nəticələrin imtahanın ikinci mərhələsi keçirilənədək elan olunması nəzərdə tutulur.

**Güntac ŞAHMƏMMƏDLİ**

*Xalq təqvimi*

## Mövsüm mərasimlərindən ikinci ilaxır çərşənbə – Torpaq çərşənbəsi

### Torpağa könül verən ruzisiz qalmaz

***Kiçik Çillə bitir, öz ömrünü xalq təsəvvüründə yazın müjdəçisi kimi yaşayan Boz aya verir. Boz ay xalq dilində "ağlar-gülər ay" kimi də adlanır. Xalq tərəfindən bu zaman kəsiminə verilən adlar, eləcə də "Boz ay" həmin zamanda havanın tez-tez dəyişməsi ilə əlaqədardır. Adətən, tutqun, dumanlı, küləkli keçən hava qəfildən istiləşir. Və ya əksinə, isti hava tez-tez öz yerini soyuq havaya, yağışlı, bəzi vaxtlarda da artıq təbiətə, təsərrüfata ziyan verə biləcək qarlı havaya verə bilir. Bu zaman kəsiminə verilən adların bəzilərində yüngül əzizləmə məqamlarını da müşahidə etmək mümkündür. Bu da etnosun təbiət və onun şıltaqlıqlarına etiqad və inamla yanaşmasını ifadə edir.***



Xalq tapındığı, etiqadla yanaşdığı təbiət qüvvələrindən imdad gözləmək məqsədilə onu "əzizləməyi" məqsədəuyğun bilmişdir. Ona görə də "ağlar-gülər ay" və sair kimi adlar bu məqsədi ifadə edir. Bəzənsə, əksinə, keçirilən ayin və rituallara, qurbanlara "baxmayan" təbiət bəzi vaxtlarda insanlarla "qəddar" rəftar edir, insanların maddi həyatını təmin edən təsərrüfatlarına böyük ziyan vurur. Və bu ziyanı qəbul etməyən insan baş vermiş hadisəyə kəskin reaksiyasını "boz" sözü ilə ifadə edir. Elə buna görə də fevralın 20-dən Novruzadək olan dəyişkən hava ilə izlənilən zaman kəsimi "Boz ay" adlanır.

Boz ay bizi Novruza aparan ay olaraq dünyanın yaranmasında iştirak edən dörd ünsürün simvollaşdığı dörd çərşənbəni əhatələyir: Su, Torpaq, Yel, Od.

Dünyanın yaranmasında əsas ünsür kimi ötən həftə qeyd etdiyimiz ilk çərşənbə – Su çərşənbəsi öz ardınca Torpaq çərşənbəsini "səsləyir". İkinci ilaxır çərşənbə torpağın oyanması, torpaqla bağlı təsərrüfat işlərinin başlanması ilə bağlı olaraq xalq təfəkküründə "Torpaq çərşənbəsi" adlanmaqdadır.

Bu çərşənbədə Azərbaycanın müxtəlif regionlarında, o cümlədən muxtar respublikamızda müxtəlif ayin və mərasimlərin icrası torpaq kultuna inamı əks etdirən mərasimlər kimi diqqət çəkir. Bu çərşənbəni el arasında "çillə beçə çərşənbəsi" də adlandırırlar. Torpağı əkib-becərmək, ona qulluq etmək üçün çərşənbədə fəallıq daha da artır, əkin işləri sürətləndirilir. Naxçıvanda bununla bağlı xalq arasında belə bir deyim formalaşmışdır ki, torpaq, ona olan qulluğun qarşılığını insana mütləq verəcəkdir. Bu deyim elə qədim türk mifizminin daşıyıcısı olan Naxçıvan mühitinin mifoloji dünyasında Torpaq yiyəsinin varlığını, onun bir zamanlar kult səviyyəsində olmasını təsdiqləyir. İnsanlar torpağa qulluq etməklə özlərinin maddi təminatını da müəyyən qədər ödəmiş olduqlarını düşünürlər. Həm də torpaqla bağlılıqlarını, əməyə, zəhmətə olan sevgilərini folklor nümunələri şəklində yaradıb gələcək nəsillərə ötürürlər:

*Qarışqadan ibrət al,*
*Qış ikən yazı düşün.*

Torpaq çərşənbəsinin xarakterik ayinlərindən biri də evlərin həyətlərində tonqal qalanmasıdır. İnsanlar od üstündən tullanaraq ağırlığın, dərdsərin köhnə ildə qalmasını arzulayarlar.

Naxçıvanda həmin çərşənbədə icra olunan ayinlərdən biri də ağacqorxutma adətidir. Ev əhlinin ən yaşlı nümayəndəsi əlində balta bağa gələr, hər ağacın dibinə üç dəfə balta ilə vurar. Bu ayin vasitəsilə inanılar ki, ağaclar "qorxaraq" yaxşı bar verəcəklər. Muxtar respublikanın bəzi bölgələrində bu ayini, əsasən, bar verməyən ağac üçün tətbiq edirlər. Əlində balta barsız ağaca yaxınlaşan insan deyir ki, əgər bar verməsən, səni kəsəcəyəm. Başqa biri isə baltanı onun əlindən alaraq deyir ki, döymə, kəsmə, mən zamin, bar verəcək. Bu ayinin kökündə yenilənmə dayanır. Digər ağaclar da "qorxudulur". Burada məqsəd təkcə ağacdan bar almaq deyil. Haqqında söhbət açdığımız ayin türkün qədim adət-ənənələri ilə bağlı olub, kökündə etnosun təbiəti yeni ruhda qarşılamaq düşüncəsi dayanır.

Naxçıvanda xalq yaddaşında belə bir inam dolaşmaqdadır ki, bir qarış yer var, onun da yiyəsi (əyəsi) var. Hər nəsnənin yiyəsi olduğu kimi, torpağın da yiyəsi var. Torpağa qulluqdan öncə gərək onun yiyəsinə salam verəsən. Əgər salam verməsən, torpaq yiyəsi səni cavabsız qoyar, yaxşı məhsul verməz. Bu inanclar torpağa tapınmanın izlərini özündə qoruyub saxlamaqla kosmoqonik görüşləri ifadə edir. Bu baxımdan xalq arasında torpaqla, yerlə bağlı olan "Yerin yeddi qatından keçmək" ifadəsi də dolaşmaqdadır.

İnanclar sırasında diqqət çəlb edən nümunələrdən biri də budur ki, elə ilk çərşənbədən başlayaraq bütün ilaxır çərşənbələrdə evə diləyə gələn qonşuya evdən ələk, maya, şam, kibrit verilməz.

Naxçıvanda torpaqla bağlı müxtəlif xalq yaradıcılığı nümunələri yaddaşlarda yaşamaqdadır ki, bunlardan sözün magik qüvvəsinə inamı xarakterizə edən alqışlar olduqca fəaldır:

*Torpağın bərəkətli olsun!*
*Torpağı sanı yaşıyasan!*
*Torpaq kimi bar-bəhrəli olasan!*
*Torpağından təzə-təzə nübarlar dadasan!*
*Torpağın rahat olsun!*

Bu nümunələrdən göründüyü kimi, torpaq qədim türklərdə insanı haqq dünyasına qovuşduran varlıq olmaqdan əlavə, onun xilasına xidmət edən kult kimi də düşünülmüşdür. Torpaq müqəddəsliyi ilə həm insana həyat verər, həm də onu haqq dünyasında ağuşuna alar. Hər mənada torpaq insana hamidir.

Naxçıvan Muxtar Respublikasının bəzi bölgələrində xalq arasında torpağın müqəddəsliyini ifadə edən atalar sözü və məsəllər də yetərincədir:

*Torpaqda itki olmaz, kötüksüz bitki olmaz.*
*Torpaq əkinçinin zəhməti ilə zinətlənər.*
*Torpağa var versən, o da sənə bar verər.*
*Sular hərəkətlidir, torpaq bərəkətli.*
*Torpağı ovuclayan qızıl ovuclar.*
*Torpağa vaxtlı-vaxtında su ver, bəhrəsini gör.*
*Torpaqla oynayan ac qalmaz.*
*Torpaqdan pay olmaz.*

İcra olunan ayin və mərasimlər, eləcə də Torpaq çərşənbəsi ilə əlaqəli yaddaşlarda qorunan inanc-sınama örnəkləri ulu əcdadların erkən təsəvvürlərinin məhsulu kimi dəyərlidir. Bu örnəklər torpağın xalqın həyatındakı əhəmiyyətini bədii və poetik şəkildə təsdiqləyir.

***Xalqın yaxşıya, xeyrə olan inamını daşıyan alqışına qoşularaq deyirik ki, torpağınız barı-bəhrəsi ilə hər zaman sizi sevindirsin! Torpaq çərşənbəniz mübarək olsun!***

**Aytən CƏFƏROVA**
***AMEA Naxçıvan Bölməsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru***

## Şəhid ailələri ilə görüş



***Heydər Əliyev adına Hərbi Liseyin xidməti vəzifələrini yerinə yetirərkən şəhid olmuş məzunlarının ailə üzvləri və yaxınları ilə kursantların görüşü keçirilib.***

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən tədbirdə Heydər Əliyev adına Hərbi Liseyin rəisi, general-mayor Məhəmməd Həsənov bildirib ki, ümummilli liderimizin xatirəsinin əbədiləşdirildiyi ilk ünvan kimi lisey gələcəyin vətənpərvər, savadlı və peşəkar zabitlərinin yetişdirilməsi yolunda inamlı addımlar atır. Ötən dövr ərzində liseydə nümunəvi hərbi tədris sistemi, möhkəm maddi-texniki baza yaradılıb. Əsas məqsəd Vətənimizin müdafiəsinə hazırlanan gənclərimizə hərbi işə dair bilik və bacarıqları mənimsətməkdən ibarətdir. Buna görə də hərbi liseyə daxil olan kursantlara ilk gündən Vətənə məhəbbət hissi aşılanır.

Tədbirdə hərbi liseyin müəllimi Mirismayıl Seyidov və şəhid qohumlarından Xanəli Kərimli çıxış edərək bildiriblər ki, müxtəlif vaxtlarda düşmən təxribatlarının qarşısını alarkən liseyin məzunları böyük qəhrəmanlıq və şücaət göstəriblər. Hərbi liseyin 8 məzunu Vətənimizin müdafiəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şərəfli zabit həyatı yaşayaraq gələcək nəsillərə örnək olmaq arzusu bu gün hər bir kursantın həyat amalına çevrilib. Hər bir gənc Heydər Əliyev adına Hərbi Liseydə təhsil aldığına görə fəxr edir və özünü əsl Vətən müdafiəçisi bilir.

Çıxışların ardından videoçarx nümayiş olunub, kursantlar Vətənimizə həsr olunmuş şeirləri bədii qiraət edib və ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

**Nəriman NƏCƏFOV**

## Atletimizdən uğurlu nəticə

*Türkiyə Cümhuriyyətinin Antalya şəhərində 15-ci Beynəlxalq Runatolia Marafonu keçirilib.*




Bu marafon ilk dəfə 850 idmançının iştirakı ilə 2006-cı ildə təşkil edilib. 2020-ci ildə keçirilən Runatolia Marafonunda 41 ölkədən 10 min idmançı mübarizə aparıb.

Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının idmançısı Əmrah Nağıyev də bu marafonda iştirak edərək 21 kilometr məsafədə 21 yaş qrupunda ikinci, böyüklər arasında 17-ci olaraq finiş xəttinə çatıb və adını qaliblər sırasına yazdırıb.

Sonda qalib idmançımız təşkilatçılar tərəfindən mükafatlandırılıb.

## Komandamız ölkə birinciliyində üçüncü olub



"Poliqon" Strateji İntellekt oyunu üzrə III Universiadanın Azərbaycan birinciliyi keçirilib. Layihənin keçirilməsində əsas məqsəd xalqımızın tarixini, mədəniyyətini, milli-mənəvi dəyərlərini təbliğ etmək, gənclərdə hərbi-vətənpərvərlik tərbiyəsini aşılamaq, milli intellektual oyunlar hərəkatını genişləndirmək və bu fəaliyyətin ənənəvi forma almasını təmin etmək, gənclərin intellektual və strategiya qurmaq potensiallarını üzə çıxarmaq, onları zərərli vərdişlərdən çəkindirmək və asudə vaxtlarının səmərəli təşkilinə nail olmaqdır.

Keçirilən ölkə birinciliyində Naxçıvan Muxtar Respublikasını "Diplomat" komandası təmsil edib. Təmsilçimiz 101 komanda arasında uğurlu nəticə göstərərək Azərbaycan birinciliyini üçüncü pillədə başa vurub.

Sonda komandamız təşkilatçılar tərəfindən mükafatlandırılıb.

## Hakimlər və məşqçilər üçün növbəti seminar





*Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA), Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Futbol Federasiyasının (NFF) təşkilatçılığı ilə futbol hakimləri üçün seminar keçirilib.*

AFFA Hakimlər Komitəsinin üzvü, FİFA referisi Anar Salmanov və digər beynəlxalq dərəcəli hakim Orxan Məmmədovun iştirakı ilə reallaşan seminar futbol oyunu qaydaları və hakimlərin peşə hazırlığını əhatə edib.

Üç gün davam edən seminarlarla yanaşı, mütəxəssislər, həmçinin Region Liqa – Naxçıvan Zonasının oyunlarını izləyib, hakimlərin oyun idarəçiliyi ilə bağlı qeydlər aparıblar. Həmçinin oyunlardakı hakimlərin ümumi idarəçiliyi təhlil olunub, videoanalizlər vasitəsilə mübahisəli epizodlar zamanı qəbul olunan qərarlar müzakirə edilib.

NFF-də təşkil olunan hakimlik kurslarının iştirakçıları AFFA-dan dəvət olunan təcrübəli futbol və futzal hakimlərinin seminar, praktik məşğələ və təlim-məşq toplanışlarına cəlb olunublar.

Seminardan sonra Region Liqanın Naxçıvan Zonasındakı komandalarda və uşaq futbolunda çalışan məşqçilərlə də görüş keçirilib. Hakimlik və ümumi oyun qaydaları ilə bağlı maarifləndirmə məqsədi daşıyan görüşdə mütəxəssislər mövzu ilə bağlı fikirlərini bölüşüblər. İştirakçılara məşqçi və futbolçuların hakimlərlə və hakimlərin onlarla etik davranış qaydaları, oyun zamanı yarana biləcək psixoloji gərginliyin aradan qaldırılması, yeni oyun qaydalarının öyrənilməsi və digər zəruri məsələlər haqqında tövsiyələr olunub.

Məşqçiləri maraqlandıran suallar cavablandırılıb, müxtəlif ölkə çempionatlarından seçilmiş oyunların videoanalizi nümayiş olunub.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Şərur rayonunun Yengicə kəndində yaşamış Əhmədov Bahəddin Əzim oğlunun adına verilmiş JN-519/13 inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 219